# Konsepsiyanı
## bəyənir və dəstəkləyirik

«2006-2016-cı illər üçün mədəniyyət sahəsində Dövlət İnkişaf Konsepsiyası» ilə bağlı redaksiyamıza məktub axını davam edir. Qaxlı oxucumuz yazır:

«2006-2016-cı illər üçün mədəniyyət sahəsində Dövlət İnkişaf Konsepsiyası» mədəniyyətin inkişafı istiqamətində respublikamızda aparılan ardıcıl və məqsədyönlü siyasətin davamıdır. Qax Rayon Mədəniyyət və Turizm Şöbəsində də müəssisə rəhbərlərinin iştirakı ilə Konsepsiya müzakirə edilmişdir. Rayonumuzun mədəniyyət işçiləri Konsepsiyanın mükəmməl bir sənəd olduğunu vurğulamaqla yanaşı, öz təklif və fikirlərini də irəli sürmüşlər. Həmin təklifləri sizin diqqətinizə çatdırırıq.

1.3. Maddəsinə:

- Rayon Mədəniyyət və Turizm şöbələrinin büdcəsinin smeta-maddələrinin tərtibi zamanı onların rəy və təkliflərini nəzərə alaraq, Mədəniyyət və Turizm Nazirliyi tərəfindən yerli icra orqanlarına əsaslandırılmış təklif və göstərişlər vermək.

2.3. Maddəsinə:

- Müasir kitabxana texnologiyasına aid elmi-metodik nəşrlərin çap edilməsi, bu sahədə təcrübəsi olan mütəxəssisləri rayon kitabxanalarına ezam etməklə, seminarların, treninqlərin keçirilməsi.

- Respublikamızda kitabxanaçılar gününün təsis edilməsi.

2.4. Maddəsinə:

- Rayon mədəniyyət evlərinin nəzdindəki metod kabinələrə metodiki köməkliyin göstərilməsi.

- Mədəniyyət işçiləri gününün təsis edilməsi.

- Rəhbər vəzifələrdə çalışanlarla digər işçilərin əmək haqları arasında olan fərqin az olması və həmin fərqin artırılması

3.1. Maddəsinə:

- Rayonlarda yerləşən xalq teatrlarının maddi-texniki bazasının gücləndirilməsi və yaradıcılıq yardımının göstərilməsi.

3.2. Maddəsinə:

- Azərbaycanda yaşayan azsaylı xalqların musiqi irsinin qorunması şərti ilə xalq musiqimizdən onların götürdüyü hissələrin, musiqilərin elmi və nəzəri cəhətdən sübut edən tədbirlərin (respublika və beynəlxalq səviyyəli) keçirilməsi.

**R.MEHDİYEVA,**
**rayon mədəniyyət evinin baş metodisti**